

*Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur!*

**Heydər Əliyev**

*Без Шуши нет Карабаха, а без Карабаха нет Азербайджана!*

**Гейдар Алиев**







İsmayıl Aydın oğlu İsmayılov

# Azərbaycan mirvarisi

# Ş u ş a

Kitabı tərtib etdi:
**Xatirə Vaqif qızı Qasımova**

**BAKI-2015**



Исмаил Айдын оглы Исмаилов

# Ш у ш а

## жемчужина Азербайджана

БАКУ-2015

## Müəllifdən

Azərbaycanın tarixçiləri, incəsənət xadimləri və yazıçıları tərəfindən Şuşanın əsasının qoyulması, tarixi, Şuşada yaşayıb-yaratmış dahi insanlar və ümumiyyətlə Şuşa haqqında bir çox kitablar, məqalələr, şerlər yazılıb-yaradılıb və tarixin yaddaşına həkk edilmişdir. Nəticədə vətənimizin dilbər guşələrindən olan Şuşa şəhəri haqqında zəngin arxiv materialları, tarixi faktları əks etdirən sənədlər və nadir fotoşəkillər qorunub saxlanılmışdır.

Bu kitab-albomu ərsəyə gətirməkdə məqsədimiz Şuşa haqqında dərc edilmiş çoxsaylı kitab, jurnal və s. nəşrlərdə əksini tapmış tarixi faktlara, Şuşanın mədəni həyatı, tanınmış şəxsiyyətləri haqqında olan məlumatlara bir yenilik gətirməkdən ibarət deyildir. Şuşamız bütün zamanlarda gözəllik və mədəniyyət təcəssümü olub. Şuşanın itirilməsi tək şuşalılara deyil, bütün Azərbaycan xalqına ağır zərbə vurdu. O da danılmaz faktdır ki, zaman ötdükcə Şuşanın canlı şahidləri yaşa dolaraq dünyalarını dəyişir və yaddaşlarda olan Şuşa da həmin insanlarla bərabər əbədiyyətə qovuşur. Kitab-albomu ərsəyə gətirməkdə də əsas məqsədimiz Qarabağın işğalından sonra dünyaya gəlmiş gənc nəslin nümayəndələrinə Şuşa haqqında, Şuşa şəhərinin Qarabağın və ümumilikdə Azərbaycanın mədəni və ədəbi həyatında rolu haqqında məlumat verməkdən ibarətdir. XIX əsrin sonları, XX əsrin əvvəlləri, ortaları, sonları və erməni işğalından sonra Şuşada çəkilmiş fotoşəkilləri bir kitaba yığmaqla Şuşanın əsasının qoyulduğu vaxtdan işğal olunub dağıntılara məruz qalan iki əsrdən artıq dövrü əhatə edən zaman haqqında ümumi təsəvvür yaratmağa və Şuşa haqqında bir çox tarixi gerçəklikləri açıqlamağa çalışmışıq. Kitab-albom üç hissədən ibarətdir: "Azərbaycan mirvarisi – Şuşa", "Tanınmış şuşalılar", "Şuşa erməni işğalından əvvəl və sonra".

Qarabağın işğalından sonra dünyaya gəlmiş gənc nəsil vətənpərvərliyi ilə heç də I Qarabağ savaşı zamanı Vətən uğrunda canlarını belə əsirgəməyən igid Azərbaycan övladlarından geri qalmır. Buna Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun simasında bir daha əmin olduq. Ona görə də haqq işimizdə sonda qələbənin bizimlə olmasına zərrə qədər şübhə etmirik. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında bir əsgər kimi möhkəm birləşən igid Azərbaycan övladları müqəddəs torpaqlarımızı azad etməyə hər an hazırdılar. Bütün bunlar bizi bir daha əmin edir ki, erməni işğalçıları öz havadarlarının köməyi ilə Qarabağ probleminin dinc yolla nizamlanmasına yönəlmiş danışıqlar prosesini süni surətdə uzatmaqla heç nəyə nail ola bilməyəcəklər.

Azərbaycan xalqı rəşadətli, müdrik və mübariz oğul və qızlarının qəhrəmanlıqları sayəsində 1992-ci ilin may ayının 8-də xəyanətin qurbanı olan Şuşanı mütləq geri qaytaracaqdır.

**İsmayıl İsmayılov**

## От автора

Азербайджанскими историками, писателями и деятелями искусства были написаны много книг, статей и стихов об основании города Шуша, о его развитии и о живших и творивших в Шуше гениальных людях.

Создавая эту книгу-альбом, мы не ставили своей целью дополнить имеющуюся информацию о городе Шуша. Шуша во все времена была воплощением красоты и культуры. Потеря Шуши был тяжелым ударом не только для шушинцев, но и для всего азербайджанского народа. Неопровержимым фактом является и то, что с течением времени живые свидетели города стареют и уходят в мир иной, а с ними умирает и живая память о Шуше. Исходя именно из этого, основной нашей целью стала донесение до сведения родившегося после оккупации Карабаха подрастающего поколения информацию о Шуше, о роли города в культурной жизни, экономическом росте не только Карабаха, но и всего Азербайджана. Собрав в одно издание фотографии, снятые в Шуше в конце XIX, начале, середине и конце XX веков, мы постарались дать объяснения многим историческим реальностям и создать общее представление о Шуше, начиная с основания города и до его уничтожения после армянской оккупации. Книга-альбом состоит из трех частей: «Шуша – жемчужина Азербайджана», «Известные шушинцы», «Шуша до и после армянской оккупации».

Родившееся после армянской оккупации Карабаха поколение ничуть не уступает своим патриотизмом героическим сыновьям и дочерям Азербайджана, пожертвовавшим собой ради спасения Родины во время I карабахской войны 1988-1994 г.г. В этом мы еще раз удостоверились, узнав о героических подвигах на поле боя Национального Героя Азербайджана Мубариза Ибрагимова. Азербайджанский народ еще более тесно сплотился вокруг Верховного Главнокомандующего – господина Президента Азербайджанской Республики Ильхама Алиева и готов к борьбе за освобождение своих священных земель. Поэтому мы ни на секунду не сомневаемся в победе азербайджанского народа за правое дело. Все это лишний раз доказывает тщетность армянских оккупантов добиваться чего-то, путем искусственного замораживания переговорного процесса по урегулированию карабахского конфликта, с помощью своих покровителей.

Оккупированная Арменией 8 мая 1992 года неописуемо красивый памятник азербайджанского зодчества город Шуша, благодаря мудрым, отважным и героическим сыновьям и дочерям азербайджанского народа, обязательно освободится от оккупантов и вновь расцветет, как колыбель азербайджанской культуры.

**Исмаил Исмаилов**



Qarabağ xanlığına aid qalxan.
Azərbaycan Milli İncəsənət Muzeyi.

Щит, относящийся к Карабахскому ханству.
Национальный музей искусств Азербайджана, Баку



***“Biz, əlbəttə, öz əzəli torpaqlarımıza – Qarabağa, Şuşaya, Xankəndinə qayıdacağıq, əvvəlki kimi orada yaşayacağıq, nə dağıdılıbsa bərpa edəcəyik və ölkəmizin layiqli gələcəyini təmin edəcəyik”.***

***“Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”.***

**Azərbaycan Respublikasının Prezidenti**

**Silahlı Qüvvələrin Ali Baş Komandanı**

**İlham Əliyev**

***«Мы, конечно же, обязательно вернемся на свои исконные территории - в Карабах, Шушу, Ханкенди. Будем там жить, как и раньше, будем восстанавливать то, что разрушено, и обеспечим достойное будущее нашей страны».***

***«Мы каждый день приближаем день победы. Наступит день, когда флаг Азербайджана будет развеваться в Карабахе, Ханкенди и Шуше».***

**Президент Азербайджана**
**Верховный Главнокомандующий Вооруженными Силами**

**Ильхам АЛИЕВ**

**Azərbaycan mirvarisi – Şuşa.**

Qarabağ xanlığının əsası müstəqil, türk, feodal dövləti kimi 1747-ci ildə I Qarabağ xanı Pənahəli xan Sarıcalı-Cavanşir tərəfindən qoyulmuşdu. Bundan sonra Pənahəli xan xanlığın paytaxtı kimi əvvəl Bayat, sonra isə Şahbulaq qalalarını tikdirir. Qısa müddət ərzində Qarabağ xanlığı hərbi cəhətdən Azərbaycanın ən güclü xanlıqlarından birinə çevrilir, özünün nizami ordusu yaradılır. Güclü xanlığın strateji cəhətdən daha əlverişli mövqeyi olan paytaxta ehtiyacı olduğundan, Pənahəli xan 1750-ci Qarabağın ən səfalı yerində, relyefin dəniz səviyyəsindən 1300 metrdən 1600 metrədək dəyişdiyi yüksəklikdə yerləşən uca dağ zirvəsində qala-şəhərin əsasını qoyur. Beləliklə Pənahəli xan Qarabağ xanlığının paytaxtını yeni qalaya köçürür. Şəhər əvvəl Pənahabad, sonra isə Şuşa adlandırılır. 1795-ci ilin iyul ayında İran şahı Ağa Məhəmməd şah Qacarın 85 minlik ordu ilə Şuşanı 33 gün mühasirədə saxlamasına baxmayaraq, müvəffəqiyyət qazana bilməməyi, Qarabağ xanlığının paytaxtının Şuşa şəhərinə köçürülməsinin nə qədər düzgün addım olmasını bir daha sübut etmişdir. Pənahəli xanın hakimiyyəti illərində, 1763-cü ilə qədər, Şuşada çoxlu abidələr, müdafiə bəndləri və qalalar tikilir. Pənahəli xan şəhəri bina edəndən dərhal sonra dövlət atributlarından biri olan Qarabağ xanlığının pul vahidi "Pənahabadi" adlı sikkə kəsdirməyə başlayır və sikkə kəsimi 1822-ci ilə kimi davam etdirilir. Bu sikkələr xalq arasında "Pənahabadi" adlandırılırdı. Sikkənin bir üzündə "Pənahabadi", o biri üzündə isə "Lə ilahə illəllah, Mühəmmədən rəsulullah" sözləri yazılmışdı. Pənahəli xanın vəfatından sonra İbrahimxəlil xan Sarıcalı–Cavanşirin hakimiyyəti (1763-1806) illərinə təsadüf edən mərhələdə Şuşada aparılan tikinti işləri daha keyfiyyətli və möhtəşəm olmuşdur. Bu mərhələdə şəhər ərazisinin boş hissələri meşələrdən təmizlənərək yerində yeni məhəllələr salınırdı. XIX əsri əhatə edən sonrakı mərhələdə şəhərin dağlıq – qərb hissəsində yeni məhəllələr salınmış və bununla Şuşanın bir şəhər kimi formalaşması dövrü başa çatmışdır. Nəticədə Şuşada 17 məhəllə salınmışdır. Hər məhəllənin məscidi, hamamı və bulağı mövcud olub. Şuşada tikilən evlər möhtəşəmliyi ilə fərqlənir, küçələrə daşlar döşənilirdi. XIX əsrdə Şuşanın baş planı mövcud olmuş və şəhərsalma qaydalarının plana uyğun olmasına ciddi nəzarət edilirdi. Evlər yalnız daşdan tikilir, evlərin iri pəncərələri, enli və şüşəli eyvanları, mərtəbələr arasındakı daşdan yonulmuş ornamentləri öz gözəlliyi ilə seçilirdi. Çoxsaylı məscidləri, bulaqları, hamamları, mədrəsələri olan şəhər qısa müddətdə Qafqazın ticarət mərkəzinə çevrilir. 1903-cü ildə Tiflisdə nəşr olunmuş "Vestnik Kavkaza" jurnalının 43-cü səhifəsində yazılmışdır: "Şuşanın görünüşü orta əsr Avropa şəhərlərini xatırladır". Şuşada inşa edilmiş evlər, karvansaralar, məscidlər, saray kompleksləri və digər tikintilərin əksəriyyəti

məşhur memar Kərbəlai Səfixan Qarabağinin (1817-1910) əməyinin məhsuludur.

1805-ci il may ayının 14-də Rusiya ilə Qarabağ xanlığı arasında bağlanan “Kürəkçay” müqaviləsinə əsasən Qarabağ xanlığı Rusiyanın tərkibinə daxil edilir. "Kürəkçay" müqaviləsi İbrahimxəlil xan ilə general Sisianov arasında imzalanır. 1806-cı ilin iyun ayında Rusiya İmperiyasının Şuşa şəhərində yerləşdirilmiş hərbi qarnizonunun komandiri polkovnik-leytenant Lisaneviç 300 nəfər rus əsgərlərindən ibarət silahlı dəstəyə İbrahimxəlil xanın öz ailəsi ilə qaldığı yay iqamətgahına hücum etmək əmri verir. Nəticədə xan və onun yaxınları, o cümlədən xanın həyat yoldaşı və azyaşlı uşaqları əsgərlər tərəfindən amansızlıqla qətlə yetirilir. Sonradan Lisaneviç bunun səbəbini guya İbrahimxəlil xanın İranla gizli əlaqə yaratmağa cəhd göstərməsi ilə izah etməyə çalışsa da, dəlillərini sübuta yetirə bilməmişdi. İbrahimxəlil xan öldürüldükdən sonra Qarabağ xanlığının rəhbəri İbrahimxəlil xanın oğlu Mehdi Qulu xan təyin olunur. 1828-ci ildə Rusiya ilə İran arasında məlum Türkmənçay müqaviləsi bağlandıqdan sonra bu müqavilədən ən çox qazananlardan biri olmuş İran və Türkiyə ərazilərində yaşayan ermənilər Rusiyanın faktiki olaraq işğal etdiyi Azərbaycanın Qarabağ, Naxçıvan, İrəvan və b. xanlıqlarının ərazisinə köçürülürlər. Nəticədə çoxsaylı erməni ailələri Şuşaya da köçürülür və Şuşanın lap yuxarı hissələrində boş qalmış ərazilərdə məskunlaşdırılırlar. Bu fakt bir daha sübut edir ki, ermənilər Şuşaya sonradan köçürülmüşlər. Belə ki, azərbaycanlı əhali Şuşanın daha rahat və yaşamaq üçün daha əlverişli olan aşağı hissəsində məskunlaşmışlar. Şəhərin bu hissəsinə su çəkilişini də həyata keçirmək nisbətən asan idi. Ermənilər isə sonradan boş qalmış yuxarı hissədə məskunlaşmışlar. Şuşada məskunlaşmış ermənilərə Rusiya tərəfindən müəyyən imtiyazlar və güzəştlər olunurdu. Bütün bunlardan məharətlə istifadə edən ermənilər özlərinin “Böyük Ermənistan” adlı məkrli niyyətlərini həyata keçirmək məqsədi ilə tarixi Azərbaycan torpaqlarına iddia ilə çıxış etməyə başlayırlar.

Beləliklə XIX əsrin sonlarından başlayaraq ermənilər şəhərdə qarşıdurmalar yaradır, millətlər arasında narazılığı artırırdılar. İlk belə qarşıdurma hələ 1895-ci ildə baş verir, ancaq onlar öz məkrli niyyətlərinə nail ola bilmirlər. Lakin buna baxmayaraq Azərbaycanda sovet hakimiyyəti qurulanadək Şuşa üç dəfə dağıntılara məruz qalır. 1905 və 1918-ci illərdə ermənilər şəhəri ələ keçirmək məqsədi ilə azərbaycanlılara qarşı silahlı hücumlar təşkil edirlər. Hər dəfə azərbaycanlıların müqaviməti ilə üzləşən ermənilər geri çəkilsələr də, şəhər böyük dağıntılara məruz qalır, əhali çoxsaylı insan itkisi verir. 1920-ci ilin mart ayının 22-də Novruz bayramı günündə Azərbaycanın müstəqilliyinə zərbə vurmaq məqsədi ilə ermənilər növbəti dəfə

Şuşada silahlı qarşıdurma yaradırlar. Çoxsaylı şəhid vermiş azərbaycanlıların qəhrəmanlığı sayəsində Şuşa işğaldan xilas olsa da, şəhərin yarısından çoxu demək olar ki, yerlə yeksan olur.

Sovet hakimiyyəti illərində şəhərin dağıdılmış hissəsində çoxmərtəbəli yaşayış binaları tikilir, ancaq şəhərin dağıntılara məruz qalmayan hissəsinin tarixi memarlıq abidələri öz gözəlliyi ilə hələ də hamını heyran qoymaqda davam edirdi. 1977-ci ildə Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edir. Şəhərin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün də xeyli iş görülür. Tarixi abidələrin bərpa edilməsinə öz məsləhət və göstərişlərini verən Heydər Əliyev bərpa edilmiş memarlıq abidələrin hər birinin açılışında iştirak edirdi. Nəticədə Şuşada 170 memarlıq və 160 incəsənət abidəsi rəsmən qeydə alınmışdır. Şuşa rayonunun rəhbər işçiləri və sakinləri ilə keçirdiyi görüşdə ümummilli lider tövsiyə edərək demişdi: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikililəri bərpa etmək lazımdır".

Günü gündən gözəlləşən Azərbaycanın musiqi beşiyi sayılan Şuşada təşkil olunan bayram tədbirləri də özünəməxsusluğu ilə seçilirdi. Hər il may ayının 19-da Şuşada Musiqi festivalı (mahnı bayramı) təşkil olunurdu. Adətən şəhərin görməli yerlərindən olan məşhur Cıdır düzündə təşkil olunan bu bayram tədbirində həm Şuşada fəaliyyət göstərən, həm də Azərbaycanın digər şəhərlərindən, eləcə də paytaxt Bakıdan gəlmiş musiqiçilər, xanəndələr, şairlər, aktyorlar, rəssamlar, kəndirbazlar və pəhləvanlar iştirak edir, milli dəyərlərə həsr olunan sərgilər açılırdı. Şəhərin sosial-iqtisadi inkişafı, ictimai-siyasi və mədəni həyatı 1932-ci ildən Şuşa şəhərində nəşr edilən "Şuşa" qəzetində və 1989-cu ildən yayımlanan "Şuşa" televiziyasında daim işıqlandırılırdı.

Bu albomda XIX əsrin sonlarında, XX əsrin əvvəlləri, ortaları və 80-ci illərində Şuşada çəkilmiş fotoşəkilləri yerləşdirməklə, Şuşanın abad və xoşbəxt günlərinin təsəvvürünü yaratmağa çalışmışıq. Şuşanın tarixi memarlıq abidələrinin, küçələrinin, bayram tədbirlərinin fotoşəkilləri də albomda yer almışdı.

Şuşanın məhəllələri: 1. Seyidli; 2. Quyuluq; 3. Qurdlar; 4. Xoca Mircanlı; 5. Çuxur məhəllə; 6. Hacı Yusifli; 7. Dördlər Qurdu; 8. Ağadədəli; 9. Çöl qala; 10. Culfalar; 11. Mamayı; 12. Merdinli; 13. Saatlı; 14. Dəmirçilər; 15. Hamamqabağı; 16. Təzə məhəllə; 17. Köçərli.

## Шуша – жемчужина Азербайджана

После основания в 1747 году Карабахского ханства, как суверенного, феодального, тюркского государства, Панах Али хан Сарыджалы-Джаваншир в качестве столицы ханства построил крепость Баят, а затем крепость Шахбулаг. Во время правления Панах Али хана, Карабахское ханство значительно расширилось, и за короткое время Карабах стал одним из самых могущественных в военном отношении ханств Азербайджана. Было создано сильное регулярное войско. С целю построить для могущественного ханства более неприступную столицу, Панах Али хан выбирает место для крепости на самом живописном месте Карабаха на горном плато, где высота рельефа меняется от 1300 до 1600 метров над уровнем моря. Таким образом, в 1750 году карабахским ханом Панах Али хан Сарыджалы-Джаванширом была основана новая столица, город-крепость. Панах Али хан переносит столицу Карабахского ханства в новую крепость. Город вначале назывался Панахабад в честь своего основателя, а позднее был переименован в Шуша. И действительно с военно-стратегической точки зрения позиция Шуши была более удачной, чем позиции предыдущих столиц ханства. Последующие после этого шага события, а именно безуспешная попытка иранского шаха Ага Мухаммед шах Каджара овладеть городом в июле 1795 года, не смотря на 33 дневную осаду крепости 85-тысячной армией против 15-тысячной армии Ибрагимхалил хана, подтвердили правильность принятого решения. За время правления Панах Али хана до 1763 года в городе были построены многочисленные дворцы, крепость и оборонительные сооружения. Примерно с момента основания города и вплоть до 1822 года, в Шуше чеканились серебряные и медные монеты. Название монет было "Панахабади" в честь хана и города. Чеканка монет была организована по инициативе Панах Али хана. После смерти Панах Али хана за время правления ханством Ибрагимхалил хан Сарыджалы-Джаваншира (1763-1806) строительство в Шуше приняло более качественный и грандиозный характер. Незастроенные участки шушинского плато были очищены от лесного покрова, а на месте были построены новые кварталы. До конца XIX в. было построено еще несколько кварталов в западной и нагорной частях Шуши и этим этапом, был окончательно сформирован облик города. В Шуше было построено 17 кварталов. Каждый квартал имел свою мечеть, баню и родник. Построенные в лучших национальных традициях Азербайджана строения, отличались богатой архитектурой. Улицы были вымощены камнем. В XIX веке Шуша имел свой Генеральный план, а строительство велось строго по плану. Дома строились исключительно из камня, имели большие окна и широкие застекленные балконы. Фасады зданий, между этажами, украшали каменные орнаменты. Город Шуша с многочисленными мечетями, родниками, банями и медресе за короткое время превращается в торговый центр Кавказа. На странице 43 журнала «Вестник Кавказа», которая была

издана в 1903 году в Тифлисе, было написано: «Город Шуша напоминает Европейские города средних веков». Построенные в Шуше караван-сараи, дворцовые комплексы, дома, мечети и другие строения в основном были плодами трудов известного карабахского архитектора Кербалаи Сефихана Карабаги (1817-1910).

В 1805 году в местечке Кюрекчай недалеко от Гянджи подписывается Кюрекчайский договор о переходе Карабахского ханства под власть России. Кюрекчайский договор был подписан Ибрагим-ханом Шушинским и Карабахским и генералом Цициановым. Таким образом, в 1805 году Карабахское ханство входит в состав России. В июне 1806 года командующий шушинским гарнизоном подполковник Лисаневич отдает распоряжение отряду из 300 солдат напасть на летнюю резиденцию хана, где он пребывал со своим семейством. В результате солдаты гарнизона зверски убивают хана, его близких, в том числе жену и малолетних детей хана. После этого события, пытавшийся оправдать свой поступок Лисаневич, обвиняет покойного хана в предательстве, однако, никаких конкретных доказательств в поддержку обвинения привести не может. После убийства Ибрагим Халил хана главой Карабахского ханства становится его сын Мехти Гулу хан, который в сентябре 1806 года был утверждён на этот пост «высочайшей грамотой» императора Александра. В 1828 году между Ираном и Российской империей заключается известный Туркманчайский договор. После заключения этого договора по инициативе России, армяне, проживающие в Иране и Турции, переселяются в Карабахское, Эриванское, Нахичеванское и другие ханства Азербайджана. В результате многочисленные армянские семьи переселяются и в Шушу, где им предоставляются участки в верхней, незаселенной части города. Этот факт лишний раз доказывает, что армяне были переселены в Шушу спустя почти 80 лет после основания города. Азербайджанцы поселились в нижних частях города сразу же после основания крепости, поскольку эти части города были более благоприятными для строительства, а верхние части пустовали вплоть до переселения армян. Поселившиеся после переселения в Шуше армяне, пользовались особыми привилегиями и льготами, предоставленные им Россией. Воспользовавшись этим, армяне сразу же начали требовать расширения своих прав, предоставления им больших земельных участков в черте города. После этого они начали создавать местные националистические группы и тайные общества.

Таким образом, уже начиная с конца XIX в. армяне создавали почву для напряженности между проживающими в городе азербайджанцами и армянами. Первое такое безуспешное противостояние в Шуше армяне пытаются организовать в 1895 году. После этого, до установления в Азербайджане Советской власти, Шуша трижды подвергается разрушениям. В 1905 и 1918 годах, армяне с целью захватить город, дважды организовывают вооруженное нападение на

азербайджанское население. Каждый раз, получив достойный отпор азербайджанцев, армяне вынужденно отступают, но, к сожалению, при этих столкновениях некоторые кварталы города подвергаются разрушениям. Вооруженные нападения армян кроме разрушений приводили и к многочисленным людским потерям среди азербайджанского населения. В очередной раз армяне устраивают вооруженное нападение на мирных азербайджанцев в день «Новруз Байрам» 22 марта 1920 года, когда Азербайджан был независимым государством. Ценой больших потерь азербайджанское население добивается отступления армян. Только на этот раз больше половины города подвергается сильным разрушениям. Огромное число домов уничтожается в результате пожара, охватившего почти весь город.

После вхождения Азербайджана в состав Советского Союза, руины разрушенных жилых домов были снесены, а на их месте построены многоквартирные жилые дома. Только уцелевшие памятники архитектуры все еще продолжали восхищать своей красотой. В 1977 году Кабинет Министров Азербайджанской ССР, по инициативе общенационального лидера азербайджанского народа Гейдара Алиева, принимает Постановление «О создании в исторической части города Шуша историко-архитектурного заповедника». Благодаря принятым мерам, в Шуше официально было зарегистрировано 170 архитектурных и 160 культурных памятников. После принятия этого Постановления было сделано многое в сфере развития социально-экономической и культурной жизни города. Гейдар Алиев лично участвовал в открытии очередного памятника архитектуры, которые были восстановлены благодаря его усилиям. На встрече с руководством и жителями шушинского района, Гейдар Алиев сказал: «Шуша город памятников архитектуры. Все, что связано с богатой историей края надо беречь, а все древние строения надо реставрировать». В колыбели музыки Азербайджана – Шуше, которая хорошела изо дня в день, устраивались праздничные мероприятия, отличающиеся своеобразностью. Ежегодно 19 мая в Шуше, обычно на территории знаменитого Джыдыр дюзи, проводился фестиваль музыки с участием музыкантов, певцов, ханенде, поэтов, актеров, танцоров, жонглеров, силачей и спортсменов не только из Шуши, но и из других городов и столицы Азербайджана. Так же организовывались выставки национальных достояний Азербайджана. Социально-экономическое развитие и общественно-политическая и культурная жизнь Шуши освещалась в издаваемой в городе с 1932 года газете «Шуша», и на телевидении «Шуша», которое начало свое вещание с 1989 года.

В этот альбом мы включили фотографии, снятые в Шуше в конце XIX, начале, середине и 80-х годах XX в.в., отражающие счастливые дни, праздники, кварталы и памятники архитектуры города.

Кварталы города Шуша: Сеидли; Гуюлуг; Гурдлар; Ходжа Мирд-жанлы; Чухур mехелле; Гаджи Юсифли; Дердлер Гурду; Агадедели; Чол гала; Джульфалар; Мамайы; Мердинли; Саатлы; Демирчилер; Хамамгабагы; Тезе мехелле; Кочарли. Всего 17 кварталов.



Rus çarı I Aleksandr tərəfindən Qarabağ xanı Mehdiqulu xana bağışlanmış xanlıq bayrağı

Почётное знамя ханства, пожалованное российским императором Александром I Мехтигулу хану Карабахскому



Высочайше утвержденъ:
21-го Мая 1843 года.
Каспiйской Области.

Шуша.

Елизаветпольской губернiи. Уѣздный.

Въ верхней половинѣ щита, въ золотомъ полѣ, часть герба Каспiйской области; въ нижней, въ зеленомъ полѣ, скачущiй золотой конь, съ Азiатскимъ сѣдломъ и уздечкой; нижняя часть щита изображаетъ, что въ уѣздѣ разводится порода отличныхъ лошадей (карабахи), выдѣлываются Азiатскiя сѣдла и уздечки.

Şuşa şəhərinin gerbi. 21 may 1843-cü ildə təsdiq edilmişdir.

Герб города Шуша. Утвержден 21 мая 1843 г.



Şuşa şəhərinin əsası qoyulandan 1822-ci ilə kimi Şuşada kəsilmiş “Pənahabadi”
adlı gümüş və bürünc sikkələr
Серебряные и медные монеты «Панахабади». Чеканились в
Шуше с момента основания города до 1822 года



Şuşa şəhərinin baş planı. XIX əsr.
Генеральный план города Шуша. XIX в.



"Şuşa" xalçası. XIX əsr.
Ковёр «Шуша». XIX в.

Azərbaycan xalçaçılıq məktəblərindən biri olan Qarabağ xalçaçılıq məktəbi XVIII əsrdə Şuşada cəmlənmişdir. Qarabağ xalçalarının 33 kompozisiyası mövcuddur. Yerli qoyun növlərinin yununun xüsusiyyətlərinə görə Qarabağ xalçaları sıx hündür və yumşaq xova malikdir. Qarabağ xalçaları həyat eşqi və parlaq koloriti ilə seçilirlər. Onlar dörd qrupa bölünürlər: medalyonsuz, medalyonlu, namazlıqlar və süjetli. Bu xalçalar Qarabağın dağlıq hissəsində Malıbəyli, Muradxanlı, Daşbulaq, Cəbrayıl, Horadiz və bir çox başqa qəsəbələrində istehsal olunurdu. Azərbaycanın cənub-qərbində yerləşən Qarabağ xalça məktəbi iki regionda – dağlıq və aran zonalarında inkişaf etmişdir. Qarabağın Dağlıq zonasında XIX əsrdə xalça istehsalında Şuşa şəhəri və Daşbulaq, Dovşanlı, Girov, Trniviz, Çanaxçı, Tuğ, Köhnə Tuğlar, Hadrut, Muradxanlı, Qasımuşağı, Qubadlı, Qozağ, Mirseyid, Bağırbəyli, Xanlıq, Dağ Tumas kəndləri əsas rol oynayırdılar. Dağlıq zonaya nisbətən xammalla, şübhəsiz ki, daha yaxşı təmin olunmuş aran rayonlarında Cəbrayıl, Ağdam, Bərdə və Füzuli xalça istehsalında əsas yer tutur. Bu mərkəzin hər birində əhalisi satış üçün intensiv şəkildə xalça toxuyan çoxlu miqdarda kəndlər mövcud olmuşdur. Öz bədii quruluşu, texnoloji xüsusiyyətləri, rəng həlli baxımından Zəngəzur və Naxçıvan xalça istehsalı mərkəzləri də Qarabağ xalça məktəbinə daxildirlər.

"Aran xalçası", "Bağçadagüllər xalçası", "Balıq xalçası", "Buynuz xalçası", "Bərdə xalçası", "Bəhmənli xalçası", "Qarabağ xalçası", "Qoca xalçası", "Qasımuşağı xalçası", "Ləmbəran xalçası", "Muğan xalçası", "Talış xalçası", "Lampa xalçası", "Malıbəyli xalçası", "Xanqərvənd xalçası", "Xanlıq xalçası", "Xantirmə xalçası", "Çələbi xalçası", "Şabalıdbuta xalçası", və s. çeşnili xalça kompozisiyaları Qarabağ xalçaçılıq məktəbinin klassik nümunələrindəndir. Qarabağda evlərin interyerlərinə uyğunlaşdırılmış 5 xalçadan ibarət dəst xalı – gəbələr geniş yayılmışdır.



“Lampa” xalçası. XIX əsr.
Ковёр «Лямпя». XIX в.

В XVIII в. Карабахская школа ковра была сосредоточена в Шуше. Карабахская школа ковра охватывает юго-западный регион Азербайджана.

Включает такие поселения как Шуша, Малыбейли, Гиров, Дашбулаг, Довшанлы, Туг, Туглар, Мурадханлы, Гадрут, Гасымушагы, Кубатлы, Гозак, Мирсейид, Багирбейли, Ханлыг, Даг Тумас. Широко были распространены в Джебраиле, Агдаме, Барде и Физули. Во многих сёлах производились ковры и выставлялись на продажу. Частью Карабахской школы ковра являются также ковры Зангезура и Нахичевана. Известны такие композиции как Аран, Бахчадагюллер, Балыг, Буйнуз, Барда, Бахманлы, Карабах, Годжа, Касымушагы, Ламбараны, Муган, Талыш, Лампа, Ханлыг, Малыбейли, Хангарвард, Хантырма, Челеби, Шабалыдбута и т. д. В конце XIX века Я. Зедгенидзе отмечал, что ковроткачеством в Шуше в основном занимались азербайджанцы. О коврοделии в азербайджанских деревнях согласно М. Х. Гейдарову свидетельствуют и эпиграфические произведения XVI века из Лачинского района Азербайджана. Одним из наиболее известных азербайджанских ковров из Карабаха является ковёр «Шадда» (азерб. Şəddə). Известен ковёр Шадда, сотканный в деревне Ламбаран близ Барды. Ковёр был соткан в двух полотнах, которые были сшиты вместе по краям. Границы шиты красными полосами, что придаёт ковру особую тональность. Изображения верблюдов сотканы из особой ткани, белые части — шёлком.



Köçərli məhəlləsi. Fotoşəkil 1902-ci ildə çəkilib.
Квартал Кочарли. Фото 1902 г.



Azərbaycan şairəsi Xan qızı Xurşid Banu Natəvanın vəsaiti hesabına 1873-cü ildə suyu ətraf dağlardan çəkilməklə tikilmiş, şairənin adını daşıyan bulaq. Arxa planda şairənin saray kompleksinin evidir. Fotoşəkil XIX əsrin sonlarında çəkilib.
Родник "Хан кызы". Вода к роднику была проведена из горных ключей в окрестностях города, а сам родник построен в 1873 г.. Все работы проводились на средства азербайджанской поэтессы Хан кызы Хуршид Бану Натаван (1830-1897) . Фотография конца XIX века.



Mamayı məhəlləsi.  Fotoşəkil XIX əsrin sonlarında çəkilib.
Квартал Мамайы. Фото конца XIX в.


.
Xanlıq Muxtarın karvansarayı. Bazarbaşı meydanı.
Fotoşəkil XX əsrin əvvəllərində çəkilib.
Караван-сарай Ханлыг Мухтара. Площадь Базарбашы.Фото начала XX в.




Yay klubunun binası. Fotoşəkil XX əsrin əvvəllərində çəkilib.
Здание летнего клуба. Фото начала XX в



Səfərov qardaşlarının karvansarayı. Xoca Mircanlı məhəlləsi. XIX əsrin memarlıq abidəsidir. Fotoşəkil 1905-ci ildə çəkilib.
Караван-сарай братьев Сафаровых. Квартал Ходжа Мирджанлы.
Памятник архитектуры XIX в. Фото 1905 г.



Üç mıx qoruğundan Ağadədəli, Seyidli, Hamamqabağı və Qurdlar məhəllələrinin görünüşü.
Ön planda Zöhrabbəyovların 3 mərtəbəli malikanəsidir. Fotoşəkil XIX əsrin sonlarında çəkilib.
Вид на кварталы Агадедели, Хамамгабагы, Гурдлар и Сеидли из территории заповедника Уч мых. На переднем плане трехэтажное здание дома Зохраббековых. Фото конца XIX в.


Nəriman Nərimanov şuşalılarla. Yuxarı Gövhər Ağa məscidinin həyəti.
Fotoşəkil 1920-ci ilin oktyabr ayında çəkilib.
Нариман Нариманов среди шушинцев. Двор мечети Юхары (Верхнее) Гевхар Ага.
Фото 1920 года.



Üç mıx qoruğundan Ağadədəli, Mamayı və Təzə məhəllə məhəllələrinin görünüşü.
Fotoşəkil 1902-ci ildə çəkilib.
Вид на кварталы Агадедели, Мамайы и Тезе мехелле из территории заповедника
Уч мых. Фото 1902 г.



Çuxur məhəllə. Ön planda məhəllə bulağı, sağ tərəfdə "Saqqaxana" ibadətgahıdır.
XVIII əsrin memarlıq abidələridir. Fotoşəkil 1898-ci ildə çəkilib.
Квартал Чухур мехеле. На переднем плане родник квартала, справа святилище "Саггахана".
Памятники архитектуры XVIII в. Фото 1898 г.




Görkəmli Azərbaycan şairəsi Xan qızı Xurşid Banu Natəvanın saray kompleksinin fonunda Şuşa qala divarının fraqmenti. XVIII-XIX əsrlərin memarlıq abidələridir. Fotoşəkil XX əsrin əvvəllərində çəkilib. Фрагмент шушинской крепостной стены на фоне дворцового комплекса азербайджанской поэтессы Хан кызы Хуршид Бану Натаван. Памятники архитектуры XVIII-XIX в.в. Фото начала XX в.



Qarabağ taciri Hacı Qulunun sarayı. 1851-ci ilin memarlıq abidəsidir.
Milli dəyərlər nəzərə alınmaqla tikilmiş 3 mərtəbəli sarayda 46 otaq və 2 böyük qonaq zalı olub. Fotoşəkil 1898-ci ildə çəkilmişdir.
Дом дворцового комплекса карабахского купца Гаджи Гулу. Памятник архитектуры 1851 г. В трехэтажном дворце, построенном в лучших национальных традициях, было 46 комнат и два больших гостевых зала. Фото 1898 г.



Əsəd bəyin saray kompleksinin evləri. XVIII əsrin memarlıq abidələridir.
Ötən əsrin 80-ci illərində çəkilmiş fotoşəkil.
Дома дворцового комплекса Асад бека. Памятник архитектуры XVIII в.
Фото 80-х годов прошлого столетия.



Şəhərin yuxarı hissəsi. 1902-ci ildə çəkilmiş fotoşəkil
Верхняя часть города. Фото 1902 г.



Mamayı məhəlləsi. Aslan Qaraşarovun evi. XIX əsrin memarlıq abidəsidir.
Квартал Мамайы. Дом Аслана Гарашарова. Памятник архитектуры XIX в.




Şəhərin yuxarı hissəsinin ğörünüşü. 1902-ci ildə çəkilmiş fotoşəkil.
Общий вид верхней части города. Фото 1902 года.



Bəhmən Mrzə Qovanlı Qacarın saray kompleksinin evi. XIX əsrin memarlıq abidəsidir. Ötən əsrin 80-ci illərində çəkilmiş fotoşəkil.

Дом дворцового комплекса Бахман Мирзы Гованлы Гаджара. Памятник архитектуры XIX в. Фото 80-х годов прошлого столетия.



Şəhərin yuxarı hissəsi. 1898-ci ildə çəkilmiş fotoşəkil.

Верхняя часть города. Фото 1898 г.



Şəhərin yuxarı hissəsi. 1898-ci ildə çəkilmiş fotoşəkil

Верхняя часть города. Фото 1898 г.



1867-ci ildə Ümumrusiya sərgisinin mükafatını qazanmış Xan qızı Xurşid Banu Natəvanın at zavodunda yetişdirilmiş Əlyetməz ləqəbli Qarabağ atı.

Жеребец Альетмез из завода Хуршидбану Натаван, премированный на Всероссийской выставке в 1867 году



1905-1918-ci illərdə ermənilərin azərbaycanlılara qarşı təşkil etdikləri silahlı basqın zamanı dinc əhalini müdafiə edərkən ermənilər tərəfindən öldürülmüş azərbaycanlı şəhidlərin dəfn edildiyi Yuxarı Gövhər Ağa məscidinin ərazisində salınmış şəhidlər xiyabanı. İşğaldan sonra qəbirlərin bir çoxu ermənilər tərəfindən dağıdılmışdı.

Аллея шахидов на территории мечети Юхары (Верхнее) Гевхар Ага. Была заложена в 1905 году. В аллее были похоронены убитые армянами защитники города при нападении вооруженных армян на мирных азербайджанцев в 1905-1918 годах. После оккупации в 1992 году большинство могил было уничтожено армянами.



Şəhid Abbas bəy Vəzirovun qəbri 1918-ci il.
Yuxarı Gövhər Ağa məscidinin ərazisində salınmış şəhidlər xiyabanı.
Могила Аббас Бек Везирова, убитого армянами в 1918 г.
Аллея шахидов на территории мечети Юхары (Верхнее) Гевхар Ага.



Şəhid Teymur Mehdi oğlunun qəbri. Baş daşı üzərində yazılmışdır: "Hər kəs gedəcək, hər kəs ölümü dadacaq." 1338 (1918)-ci il. Yuxarı Gövhər Ağa məscidinin ərazisində salınmış şəhidlər xiyabanı.
Могила Теймура Мехти оглы, убитого армянами в 1918 г. На надгробии написано: "Всех постигнет смерть, все уйдут в мир иной". 1338 г.(1918 г.).
Аллея шахидов на территории мечети Юхары (Верхнее) Гевхар Ага.



Şəhid Kərbəlayı İsmayılın qəbri. 1918-ci il. Yuxarı Gövhər Ağa məscidinin ərazisində salınmış şəhidlər xiyabanı.
Могила Кербалаи Исмаила, убитого армянами в 1918 г.
Аллея шахидов на территории мечети Юхары (Верхнее) Гевхар Ага.



22 mart 1920-ci ildə ermənilərin azərbaycanlılara qarşı təşkil etdikləri silahlı basqın nəticəsində möhkəm dağıntılara məruz qalmış Mamayı, Ağadədəli və Köçərli məhəllələrindəki yaşayış evləri
Разрушенные и сожженные армянами жилые дома в кварталах Мамайы, Агадедели и Кочарли, во время вооруженного нападения на мирных азербайджанцев 22 марта 1920 г.



22 mart 1920-ci ildə ermənilərin azərbaycanlılara qarşı təşkil etdikləri silahlı basqın nəticəsində möhkəm dağıntılara məruz qalmış Mamayı məhəlləsinin yuxarı hissəsində yerləşən yaşayış evləri
Разрушенные и сожженные армянами жилые дома в верхней части квартала Мамайы, во время вооруженного нападения на мирных азербайджанцев 22 марта 1920 г.



22 mart 1920-ci ildə ermənilərin azərbaycanlılara qarşı təşkil etdikləri silahlı basqın nəticəsində möhkəm dağıntılara məruz qalmış yaşayış evləri

Разрушенные и сожженные армянами жилые дома, во время вооруженного нападения на мирных азербайджанцев 22 марта 1920 г.



.

Yuxarı Gövhər Ağa məscidi. II Qarabağ xanı İbrahimxəlil xan Çavanşirin göstərişi ilə 1769-cu ildə inşa edilib. Görkəmli rus rəssamı V.V.Vereşaginin 1865-ci ildə çəkdiyi rəsm.

Мечеть Юхары (Верхнее) Гевхар Ага. Построен по велению II карабахского хана Ибрагимхалил хан Джаваншира в 1769 г.

Рисунок русского живописца Верещагина В.В. 1865 г. Шуша.



Müqəddəs Məhərrəm ayında Aşura dini mərasim tədbirləri. Yuxarı Gövhər Ağa məscidinin qarşısı. Rəsm 1865-ci ilin may ayında görkəmli rus rəssamı V.V.Vereşagin tərəfindən çəkilmişdir.
Траурное шествие Ашура по случаю случаю священного месяца Мухаррам у мечети Юхары (Верхнее) Гевхар Ага. Рисунок русского художника Верещагина В.В. Шуша, 1865 год.



Qara Böyük Xanım qəsri. Qurdlar məhəlləsi. Rəsm 1865-ci ildə görkəmli rus rəssamı V.V.Vereşagin tərəfindən çəkilmişdir.
Замок Кара Беюк Ханум. Квартал Гурдлар. Рисунок русского живописца Верещагина В.В. 1865 г. Шуша.



Azərbaycanlı uşaqlar mədrəsədə dərs zamanı. Rəsm 1865-ci ilin may ayında görkəmli rus rəssamı V.V.Vereşagin tərəfindən çəkilmişdir.

Азербайджанские дети на занятиях в медресе. Рисунок выдающегося русского живописца и литератора, одного из наиболее известных художников-баталистов Верещагина Василия Васильевича. Шуша, 1865 г..



Şuşada bəy evinin qonaq otağı. Rəsm 1865-ci ilin may ayında görkəmli rus rəssamı V.V.Vereşagin tərəfindən çəkilmişdir.

Зал бекского дома в Шуше. Рисунок выдающегося русского живописца и литератора, одного из наиболее известных художников-баталистов Верещагина Василия Васильевича (1865 г.).



İran ordusu Şuşa qalasını mühasirəyə alarkən. Rəsm 1865-ci ilin may ayında görkəmli rus rəssamı V.V.Vereşagin tərəfindən çəkilmişdir.
Осада шушинской крепости иранской армией. Рисунок выдающегося русского живописца и литератора, одного из наиболее известных художников-баталистов
Верещагина Василия Васильевича (05.1865 г.)




Görkəmli Azərbaycan şairi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin qəbri üstündə tikilmiş məqbərənin qarşısında Vaqif poeziya günlərinə həsr edilmiş tədbir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tədbir iştirakçıları arasında. 1982-ci il.
Мероприятия по случаю дней поэзии Видного азербайджанского поэта-визиря карабахского ханства Молла Панах Вагифа у мавзолея на могиле поэта. Среди участников мероприятия общенациональный лидер азербайджанского народа Гейдар Алиев. 1982 г.



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev görkəmli Azərbaycan şairi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin qəbri üstündə tikilmiş məqbərənin içərisində şairin büstü qarşısında
Общенациональный лидер азербайджанского народа Гейдар Алиев у бюста Видного азербайджанского поэта-визиря карабахского ханства Молла Панах Вагифа (1717-1797) в мавзолее на могиле поэта



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Şuşada görkəmli Azərbaycan şairəsi Natəvanın vəsaiti hesabına tikilmiş bulağın qarşısında. Heydər Əliyevdən sağ tərəfdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, sol tərəfdə isə Azərbaycanın Rusiya Federasiyasındakı səlahiyyətli səfiri Polad Bülbül oğlu. 1982-ci il.
Общенациональный лидер азербайджанского народа Гейдар Алиев у родника поэтессы Натаван. Справа от Гейдара Алиева Президент Азербайджанской Республики Ильхам Алиев, слева посол Азербайджана в Российской Федерации Полад Бюльбюль оглы. 1982 г.



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həyat yoldaşı
Zərifə xanımla Vaqifin poeziya günlərinə həsr olunmuş tədbirdə. 1982-ci il.
Общенациональный лидер азербайджанского народа Гейдар Алиев с супругой
Зарифой ханум на мероприятии по случаю дней поэзии Вагифа. 1982 г.



Heydər Əliyev şuşalılarla. 14 yanvar 1982-ci il. "Meydan" məhəlləsi.
Гейдар Алиев с шушинцами. 14 января 1982 года. Площадь "Мейдан".



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Şuşa qalasının "Gəncı qapısı"-nın bərpasından sonra açılışında. Şuşa şəhərinin qala divarının və ümumiyyətlə bütün tarixi abidələrinin bərpası Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilmişdir.

Общенациональный лидер азербайджанского народа Гейдар Алиев на открытии гяджинских ворот шушинской крепости после реставрации. Реставрация крепостной стены и всех памятников архитектуры города Шуша была воплощена в жизнь по инициативе Гейдара Алиева.




Görkəmli Azərbaycan şairi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin qəbri üstündə tikilmiş məqbərənin açılışı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tədbir iştirakçıları arasında. 1982-ci il.

Открытие мавзолея на могиле Видного азербайджанского поэта-визиря карабахского ханства Молла Панах Вагифа. Среди участников мероприятия общенациональный лидер азербайджанского народа Гейдар Алиев. 1982 г.



Məşhur Xarı Bülbül gülü -  Azərbaycanın nadir endemik bitki növüdür.
Əsasən, Qarabağ ərazisində rast gəlinir. Xüsusi gözəlliyi ilə seçilir.
Şuşanın rəmzlərindən biridir.

Знаменитый цветок эндемик - Хары Бюльбюль. Произрастает
в основном на территории Карабаха и Шуши.
Один из символов города Шуша.




**Şuşa turist bukleti. 1983-cü il**

Şuşa – ittifaq miqyasında gözəl dağ – iqlim və balneoloji kurortudur. Burada sanatoriyalar, pansionatlar və turist bazaları inşa edilmişdir. Şəhərin ətrafında karbon turşulu – hidrokarbonatlı – natriumlu "narzan" tipli çoxsaylı mineral su mənbələri aşkar edilmişdi. Bu müalicəvi su Şuşanın sanatoriyalarında həm süfrə suyu kimi, həm də vanna qəbulunda müvəffəqiyyətlə istifadə olunur. Bu sular nəfəs yolu xəstəlikləri, həzm, sinir sisteminin pozulması, qan azlığı kimi xəstəliklərin müalicəsi zamanı çox xeyirlidir. Şəhərdə gözəl mineral su qalereyası inşa edilmişdir. Buraya su şəhərdən 30 km kənarda yerləşən mənbədən boru vasitəsi ilə çəkilmişdir. Həmçinin mineral su doldurulması zavodu da mövcuddur. Şuşa həm də qədim incəsənət mərkəzi kimi məşhurdur. Şəhərdə tarix muzeyi, dahi bəstəkar Üzeyir Hacıbəyovun ev muzeyi, xalça muzeyi və bir çox başqa muzeylər fəaliyyət göstərir. Çoxsaylı parklar və güllüklər şəhərin təbii gözəlliyinə əlavə rəng qatır. Şəhər hər tərəfdən palıd, fıstıq, vələs meşələri, yaşıl yamaclar və meyvə bağları ilə əhatə olunub. Gözəl təbiət, tarixi abidələr, əlverişli iqlim burada turizmin inkişafına şərait yaradır. Məşhur Şuşa kurortu eyni zamanda müasir turizm mərkəzi kimi də tanınır. Şuşada SSRİ vətəndaşları ilə yanaşı həm də bütün digər sosialist ölkələrin vətəndaşları da istirahət edir və sağlamlıqlarını möhkəmləndirirlər.

**Туристический буклет Шуша. 1983 г.**

Шуша - превосходный горноклиматический и бальнеологический курорт, здравница союзного масштаба. Здесь построены санатории, пансионаты, турбаза. В окрестностях города найдены многочисленные минеральные углекисло-щелочно-железистые источники типа "нарзан"; наиболее известны - "туршсу" и "демир-су". Эта целебная вода с успехом применяется в здравницах Шуши. Углекислые воды минеральных источников используют для питьевого лечения, ванн и др. процедур. Эффективны при лечении заболеваний органов дыхания, пищеварения, функциональных расстройств нервной системы, малокровия. В городе построен красивый павильон минеральной воды, куда она приходит по тридцатикилометровому трубопроводу. Имеется также завод разлива минеральных вод. Город известен как старинный центр народного искусства (ковроделия, декоративной росписи); Музей истории города, мем. Дом-музей композитора У. Гаджибекова. Сохранились остатки крепостных стен, замки 18 в., жилые дома 18-19 вв. с росписями. В Шуше много парков, скверов, цветников. Окрестности города - это море зелени: леса из дуба, бука, граба, зеленые холмы, фруктовые сады. Красочная природа, памятники старины, хороший климат - все здесь способствует развитию туризма. Шуша наряду со своей курортной известностью становится популярным туристическим центром. В Шушу приезжают отдыхать и поправлять здоровье со всех концов СССР.




Şuşa qalasının Gəncə qapısı. Qarabağ xanı Pənahəli xan Cavanşirin
təşəbbüsü ilə 1750-1756-cı illərdə inşa edilmişdir. XVIII əsrin memarlıq abidəsidir.
Гянджинские ворота шушинской крепости. Была воздвигнута по велению
Панах Али хан Джаваншира в 1750-56 г.г.. Памятник архитектуры XVIII в.



I Qarabağ xanı Pənahəli xan Cavanşirin sarayının xarabalıqları. XVIII əsrin memarlıq abidəsidir.
Руины дворца I Карабахского хана Панах Али хан Джаваншира.
Памятник архитектуры XVIII в.



Şuşa qala divarının Şuşa sanatoriyasının istirahət evinin ərazisində olan fraqmenti.
Qarabağ xanı Pənahəli xan Cavanşirin təşəbbüsü ilə 1750-1756-cı illərdə
inşa edilmişdir. XVIII əsrin memarlıq abidəsidir.
Фрагмент шушинской крепостной стены на территории дома отдыха санаторий Шуша.
Была воздвигнута по велению карабахского хана Панах Али хан Джаваншира
в 1750-56 г.г.. Является памятником архитектуры XVIII в.



Şuşa qala divarının ümumi görünüşü. Qarabağ xanı Pənahəli xan Cavanşirin təşəbbüsünə
əsasən 1750-1756-cı illərdə inşa edilmişdir. XVIII əsrin memarlıq abidəsidir.
Общий вид шушинской крепостной стены. Была воздвигнута по велению
карабахского хана Панах Али хан Джаваншира в 1750-56 гг.



Şuşa qala divarının şəhərin aşağı hissəsində olan fraqmenti. XVIII əsrin memarlıq abidəsidir.
Фрагмент шушинской крепостной стены в нижней части города.
Памятник архитектуры XVIII в.



Şuşa qala divarının Gəncə qapısı yaxınlığındakı fraqmenti. XVIII əsrin memarlıq abidəsidir.
Фрагмент шушинской крепостной стены близ гянджинских ворот крепости. Является памятником архитектуры XVIII в.



Şuşa qala divarının şəhərin qərb hissəsində sıldırım qaya üzərində tikilmiş fraqmenti.
XVIII əsrin memarlıq abidəsidir.
Фрагмент шушинской крепостной стены на отвесной скале в западной части шушинского плато. Является памятником архитектуры XVIII в.



Şuşa qala divarının Şuşa sanatoriyasının istirahət evinin ərazisində olan fraqmenti.
XVIII əsrin memarlıq abidəsidir.
Фрагмент шушинской крепостной стены на территории дома отдыха санаторий Шуша.
Является памятником архитектуры XVIII в.



Şuşa qala divarının Gəncə qapısı yaxınlığındakı fraqmenti.
XVIII əsrin memarlıq abidəsidir.
Фрагмент шушинской крепостной стены близ гянджинских ворот крепости.
Является памятником архитектуры XVIII в.



Şuşa qala divarının Gəncə qapısı yaxınlığındakı fraqmenti. XVIII əsrin memarlıq abidəsidir.
Фрагмент шушинской крепостной стены близ гянджинских ворот крепости.
Является памятником архитектуры XVIII в.



Şuşa qala divarının gözətçi bürcünün qala divarında olan və atəş üçün nəzərdə tutulan dəlikdən görünüşü. XVIII əsrin memarlıq abidəsidir.
Вид на сторожевую башню шушинской крепостной стены через отверстие для стрельбы на стене. Является памятником архитектуры XVIII в.



İbrahimxəlil xanın Daşaltı dərəsində yerləşən sığınacağının xarabalıqları. XVIII əsrin memarlıq abidəsidir.
Убежище Ибрагимхалил хана в ущелье Дашалты. Памятник архитектуры XVIII в.



Köçərli məhəlləsinin aşağı hissəsinin Şuşa qalasının Gəncə qapısından görünüşü.
Вид на нижнюю часть квартала Кочарли с гянджинских ворот шушинской крепости.



Məşhur Şuşa türməsi. XIX əsrin ikinci yarısında Xan qızı Natəvanın vəsaiti hesabına inşa edilmişdir. Bundan əvvəl şuşalı məhkumlar Gəncə şəhərində yerləşən həbsxanada saxlanılırdılar və onların qohumları görüşmək üçün uzun yol qət etməli olurdular.
Знаменитая шушинская тюрьма. Построена на средства поэтессы Хан кызы Натаван во второй половине XIX в. До этого осужденные шушинцы содержались в исправительной колонии города Гянджа и это создавало много неудобств родственникам осужденных.



İsa bulağı meşəsi

Лес в окрестности родника “Иса булагы”



Cıdır düzünün "Üç mıx" qoruğundan görünüşü

Джыдыр дюзи. Вид из территории заповедника Уч мых.



Kiçik Kirs dağının ətəkləri.
Предгорья Малого Кирса.



Böyük Kirs dağının zirvəsi. Hündürlüyü dəniz səviyyəsindən 2725 m.
Вершина горы  Большой Кирс. Высота 2725 м. над ур. моря.



Daşaltı dərəsi
Ущелье Дашалты



Bakı - Şuşa yolu. (7 qat)
Дорога Баку - Шуша



Cıdır düzündən Daşaltı dərəsinin görünüşü. Üfüqdə görünən Böyük Kirs dağının zirvəsidir. Dəniz səviyyəsindən 2725 metr hündürlükdə yerləşir.

Вид на ущелье Дашалты с Джыдыр дюзи. На горизонте гора Беюк (Большой) Кирс. Высота 2725 м. над ур. моря.



Məşhur "Çətir" şəlaləsi. Daşaltı dərəsinin cənub şərq hissəsində yerləşir.

Знаменитый водопад "Зонтик". Находится на юго-восточной части шушинского плато в ущелье Дашалты.



Cıdır düzündən Topxana meşəsinin görünüşü
Вид на лес Топхана с Джыдыр дюзи.



Cıdır düzü. Şuşalıların və şəhərin qonaqlarının istirahət etdikləri yerlərdən biri. Azərbaycanda Sovet hakimiyyəti qurulmamışdan əvvəl Şuşa bəyləri burada məşhur Qarabağ atlarının iştirakı ilə cıdır yarışları təşkil edərdilər.
Джыдыр дюзи. Один из излюбленных мест отдыха шушинцев и гостей города. До установления в Азербайджане Советской Власти дворяне города устраивали здесь скачки  с участием известных карабахских скакунов.



Şuşa şəhərinin televiziya qüllələri. Dəniz səviyyəsindən 1525 metr yüksəklikdə yerləşən "Qızıl qaya" dağında quraşdırılmışdır. Şuşa televiziyası 1989-cu ildən yayımlanırdı.
Телевизионные башни города Шуша. Установлены на вершине горы Золотая скала. На высоте 1525 м. над ур. моря. Шушинское телевидение начало свое вещание с 1989 г.



Qızıl qaya dağı. Hündürlüyü dəniz səviyyəsindən 1525 m.
Гора "Гызыл гая" (Золотая скала). Высота 1525 м. над ур. моря.



Şuşa - Laçın yolu
Дорога Шуша-Лачин



Qarabağın cənub hissəsinin Cıdır düzündən görünüşü. Şəkildə soldan birinci Şuşa şəhər İcra Hakimiyyətinin Başçısı Mikayıl Gözəlovdur.
Вид на южный Карабах с Джыдыр дюзи. На фотографии первый слева Глава Исполнительной Власти города Шуша Микаил Гезалов.



Pionerlər Cıdır düzündə

Пионеры в Джыдыр дюзи




Musiqi festivalı (mahnı bayramı) ilə əlaqədar Cıdır düzündə təşkil olunmuş bayram tədbirləri.
Ötən əsrin 70-ci illərindən hər il may ayının 19-da təşkil olunurdu.

Праздничные мероприятия по случаю фестиваля музыки в Джыдыр дюзи.
Проводился в Шуше ежегодно 19 мая с 70-х годов прошлого столетия.



Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun heykəlinin açılışı ilə əlaqədar təşkil olunmuş bayram tədbirləri. Görkəmli Azərbaycan şairəsi Xan qızı Xurşid Banu Natəvanın malikənəsinin ərazisi.
Праздничные мероприятия, устроенные по случаю открытия памятника Великому азербайджанскому композитору Узеиру Гаджибекову. Территория имения Видной азербайджанской поэтессы Хан кызы Хуршид Бану Натаван.



Xarı Bülbül festivalı. 1989-cu il. Şəhərin qonaqları və sakinləri Cıdır düzünə gedərkən.
Фестиваль Хары Бюльбюль. 1989 год. Гости и жители города идут на праздничные мероприятия в Джыдыр дюзи через квартал Сеидли.



Beynəlxalq Xarı Bülbül festivalı ilə əlaqədar Cıdır düzündə təşkil edilmiş
bayram tədbirləri. 1989-cu il.

Праздничные мероприятия в Джыдыр дюзи по случаю Международного фестиваля
Хары Бюльбюль. 1989 год.



Dünya şöhrətli bəstəkar Üzeyir Hacıbəyovun 100 illik yubileyinə həsr olunmuş tədbir.
Xan qızı Natəvanın malikanəsinin ərazisi.

Мероприятия, посвященные 100-летнему юбилею всемирно известного композитора
Узеира Гаджибекова. Территория имения поэтессы Хан кызы Натаван.




Azərbaycanın milli dəyərlərinin səhnələşdirilmiş sərgisi.
Şuşa qalasının Gəncə qapısı. 1988-ci il.
Театрализованная выставка национальных достояний Азербайджана.
Гянджинские ворота шушинской крепости. 1988 г.



Novruz bayramı ilə əlaqədar Bazarbaşı meydanında təşkil olunmuş bayram tədbirləri. 1989-cu il.
Праздничные мероприятия по случаю Новруз байрам на площади Базарбашы. 1989 год.



Özbəkistan SSR mədəniyyət və ədəbiyyat günləri iştirakçıları
Molla Pənah Vaqifin büstü önünə gül qoyarkən. 1979-cu il.
